***İşğal zamanı erməni vandalları Azərbaycan ərazilərində olan təbii sərvətləri talan etmiş, qızıl, civə, mis, qurğuşun, sink, kömür və s. daxil olmaqla 163 faydalı qazıntı yatağı, həmçinin meşə örtüyü, nadir ağaclar qanunsuz istismara məruz qalmışdır.***

# Ekoloji terrorun nəticələri aradan qaldırılır

Ümumi sahəsi 8000 hektardan çox olan palıd, ardıc, fıstıq, vələs, şam, göyrüş və qoz ağaclarından ibarət qiymətli və çoxillik sıx meşələrin – bənzərsiz bir ekosistemin məhv edilməsi endemik biomüxtəlifliyə ən ağır zərbə olmuşdur. Bu isə Ermənistanın qoşulduğu ekologiya və ətraf mühitlə bağlı beynəlxalq Konvensiyaların, o cümlədən, "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında BMT konvensiyasının pozulması deməkdir. Ekspertlərin bildirdiklərinə görə, ağ fosfor tipli bombalardan istifadə etməklə törədilən yanğınların söndürülməsi, eləcə də təbii yollarla sönməsi mümkün deyil.

Ermənistan işğal etdiyi torpaqlarımızda dünya dövlətlərinin gözü önündə beynəlxalq hüquq prinsiplərinə, BMT və ATƏT-in qərar və qətnamələrinə məhəl qoymamışdır. İşğalçı dövlətin apardığı qeyri-qanuni iqtisadi fəaliyyət 1949-cu ildə qəbul edilmiş "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" Cenevrə Konvensiyasının, habelə insan hüquqları sahəsində mövcud beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozmuşdur. İşğal etdiyi ərazilərdə erməni işğalçılarının canlı təbiətə və bəşəriyyətə qarşı yönəlmiş əməlləri barədə Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyasının baş katibinə, Biomüxtəliflik üzrə Konvensiyanın icraçı katibinə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin prezidentinə rəsmi müraciətlər edilmiş, beynəlxalq təşkilatların diqqətinə bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyi çatdırılsa da, talançı Ermənistan çirkin əməllərindən əl çəkməmişdir.

Cənab Prezident beynəlxalq təşkilatların tribunalarından bu məsələni dəfələrlə qaldıraraq, erməni vandallarını ittiham etmişdir. BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxışı zamanı dövlət başçımız demişdir:

"Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib. Meşələrimizin 60 min hektarı məhv edilib, kəsilib və oğurlanıb, torpaqlarımız və çaylarımız çirkləndirilib və zəhərlənib, Ermənistan keçmiş işğal olunmuş ərazilərdə bizim su ehtiyatlarımızdan süni ekoloji fəlakət yaratmaq üçün istifadə edib. 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası "Azərbaycanın cəbhəboyu rayonlarının sakinləri qəsdən sudan məhrum edilir" adlı qətnamə qəbul edərək, Ermənistan hökumətindən su ehtiyatlarından siyasi təsir və ya təzyiq aləti kimi istifadəsinə son qoyulmasını tələb etmişdir. Ermənistan həmin qətnaməyə qətiyyən məhəl qoymadı".

Müşavirədə cənab Prezident vurğulayıb ki, Avropa Şurası Parlament Assambleyasında bir neçə il bundan əvvəl xüsusi məruzə hazırlandı və qəbul edildi -- Ermənistanın Azərbaycana qarşı ekoloji terroru ilə bağlı məruzə. Orada hər şey açıq-aşkar deyilmişdi. Tərtər çayının suyundan bizi məhrum etmişdilər. Halbuki Heydər Əliyev Suqovuşan su anbarını inşa edəndə Bərdə, Ağdam, Goranboy, Yevlax, Ağcabədi və digər rayonların 100 min hektar torpağını suvarması nəzərdə tutulurdu və su gedirdi. İndi biz Suqovuşana qayıtmışıq, indi suyu bərpa etmişik və yeni kanallar da çəkiləcək.

Doğrudan da, çaylarımızın ekoloji vəziyyəti bərbad gündə idi. Çaylardakı qiymətli balıqların kökü kəsilirdi. Xüsusilə Bərgüşad və Həkəri çaylarından hər il tonlarla balıq ovlanıb, İrəvana, Ermənistanın digər şəhər və kəndlərinə daşınıb.

Başlanğıcını qədim yurd yerimiz Zəngəzur silsiləsinin Qapıcıq dağından götürüb, indiki Ermənistanın Qafan rayonu və Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonu ərazisindən keçən, ümumi uzunluğu 85 kilometr olan Oxçuçay bu gün ekoloji terrorla üz-üzədir.

Ekoloqlar tərəfindən ölkəmizin sərhəd çaylarının ekoloji vəziyyətinin öyrənilməsi məqsədilə 2021-ci ilin yanvar-iyun aylarında aparılan monitorinqlər zamanı Oxçuçaydan götürülən su nümunələrinin yerli və beynəlxalq laboratoriyalarda, o cümlədən, Almaniyanın beynəlxalq səviyyədə akkreditə olunmuş və sertifikatlaşdırılmış SGS laboratoriyasında analizi zamanı yüksək miqdarda mis, molibden, manqan, dəmir, sink və xrom kimi ağır-toksik maddələr aşkar edilmişdir.

Prezident İlham Əliyev müşavirədə bir daha bu məsələyə münasibət bildirmişdir: "Oxçuçay çayının fəlakəti indi dünyanın gözü qabağındadır. Biz bu məsələni qaldırmışıq. Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il vaxt keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən "Cronimet" şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarında gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıbdır. Ancaq bu fəlakəti törədən "Cronimet" şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır".

**Biz ermənilər törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik. O cümlədən xarici şirkətləri, hansılar ki, bizim təbii yataqlarımızı istismar ediblər. Qızıl yataqlarımızı, digər yataqlarımızı qanunsuz istismar edən xarici şirkətlər hesab edirlər ki, bizdən yaxa qurtaracaqlar? Yox! Biz onları məhkəməyə gətirəcəyik, onları biabır edəcəyik. Oxçuçay suyunu sarı rəngə boyayan "Cronimet" şirkəti gəlsin o zibilini təmizləsin. Yoxsa hesab edirlər ki, vaxt keçdi və biz hər şeyi unutduq. Biz heç nəyi unutmamışıq və unutmayacağıq.**

**Azərbaycan Respublikasinin Prezidenti İlham Əliyevin 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədəki nitqindən**





Düşmən ölkə Azərbaycanın tərkib hissəsi olan Qarabağda dünyanın bir çox xarici şirkətlərinin filiallarını yaradaraq müxtəlif sahələr -- mədənçilik, tikinti, ağac emalı, telekommunikasiya və digər sahələr üzrə Azərbaycanın icazəsi olmadan qanunsuz fəaliyyət göstərmişdir.

Belə ki, ümumilikdə, Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin törətdiyi ekologiya terroruna 20-dən artıq ölkənin, o cümlədən Böyük Britaniya, Fransa, İran, ABŞ, Rusiya, İsveçrə, Almaniya, Hollandiya və digər dövlətlərin şirkətləri qoşulmuş, işğal edilmiş ərazilərə investisiya yatıraraq Azərbaycanın təbii sərvətlərini qəddarcasına istismar etmiş, qeyri–qanuni yollarla xarici ölkələrdə satışa çıxarmışlar.

Ən çox talanan təbii ehtiyatlardan birincisi Kəlbəcərin Ermənistanla sərhəd bölgələrində, Ağdərə və Zəngilanda olan qızıl yataqları olub. 2002-ci ilin avqust ayında yaradılmış "Base Metals" MMC şirkəti uzun müddət Ağdərə rayonunda qızıl ehtiyatı 13,5 ton olan Qızılbulaq (Drambon) kəndindəki mis-qızıl mədənlərini talamışdır. Mədəndən hər ay 12 min ton filiz çıxarılaraq, emal edilmiş və tərkibində qızıl olan mis Avropa bazarlarına çıxarılmışdır.

Uzun illər erməni işğalı altında olan, Kəlbəcər rayonunun ərazisində yerləşən, Söyüdlü (Zod), Ağduzdağ və Tutxun qızıl yataqları Ermənistan tərəfindən talan edilmişdir. Belə ki, 1998-ci ildə Kanadanın "Canadian First Dynasty Mines Ltd" və Hindistanın "İndian Sterlite Gold Ltd" şirkəti ilə müqavilə bağlamış Ermənistan hökuməti 2002-2003-cü illərdə Zod yatağından külli miqdarda qızıl hasil etmişdir.

Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanın inzibati ərazisində 107 hektar sahədə yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin bərpa edilməsi ilə bağlı Prezident İlham Əliyevin 20 oktyabr 2021-ci il tarixli sərəncam imzalaması da bunun bariz ifadəsidir.

Artıq Qarabağın təbiəti rahat nəfəs alır. Parklar, qoruqlar bərpa olunur. Məhsuldar torpaqlar minalardan təmizlənir. Çirkləndirilmiş çaylar, göllər durulur. Bütün bunlar isə Qarabağın ekoloji həyatını daha da canlandırır və zənginləşdirir.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***